

**AYDIN MİRZƏZADƏ,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## BÖYÜK SİYASƏTİN HEYDƏR ƏLİYEVSİZ 1987-1993-CÜ İLLƏRİ

Tarixdə elə şəxslər var ki, onların şəxsi həyatı, dövrünün, xalqının tarixinin tərkib hissəsinə çevrilir. Sanki tale zamanın problemlərinin həllini onların qismətinə yazmış, şəxsi həyatı ilə ictimai təyinatları arasında heç bir sərhəd qoymamışdır.

Xalqının taleyini həll edəcək simaların kimliyini isə bir qayda olaraq obyektiv situasiya müəyyənləşdirir. Bəzən ictimai inkişafa subyektiv müdaxilələr və qısa müddətli təsadüflər olsa da, son qərarı bir qayda olaraq ictimai tələbat verir. Yüksək hazırlığı və şəxsi ictimai nüfuzu ilə seçilən şəxslərin həll etdiyi taleyüklü məsələləri, tarix boyu dəfələrlə təsdiqlənmiş bir aksiom olduğu aydın bir məsələdir.

Dövrümüzün belə seçilən şəxslərindən biri də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevdir. Onun həyatının hər bir dövrü respublikamızın inkişafının müəyyən konkret bir dövrü ilə bağlıdır. Təbiətdən gələn fitri istedad, güclü iradə və özünənəzarət bacarığı Əliyevin həmişə liderlər sırasına çıxmasına, düzgün qərarlar qəbul etməsinə imkan vermişdir. Onun həyatının analizi deməyə imkan verir ki, o tək özünü, nəslini təmsil etməyib, Azərbaycan xalqının əsrlər boyu topladığı zəngin daxili potensialının konkret bir şəxsdə cəmləşməsidir.

Tarixin ayrı-ayrı mərhələlərində müəyyən qüvvələr Heydər Əliyevi fəal siyasətdən uzaqlaşdırmağa çalışsalar da, ictimai tələbat onu yenidən mübarizənin ön sıralarına çıxartmışdır. Məhz bu tələbat onun 1969-cu ildə Azərbaycanın rəhbəri vəzifəsinə yüksəltmiş, onun rəhbərlik bacarığının tam reallaşmasına imkan vermişdir. 1982-ci ilə kimi davam edən bu dövr Heydər Əliyevin tək rəhbər kimi deyil, güclü vətənpərvər və milli hisslərə malik bir strateq olduğunu göstərmişdi.

Heydər Əliyevin respublikaya birinci siyasi rəhbərlik dövrünün Azərbaycan üçün güclü iqtisadi inkişaf, mədəniyyət və incəsənətə qayğının artırılması, bir çox sahələr üzrə milli kadrların yetişdirilməsi dövrü kimi xarakterizə edilməsinə artıq heç kəs etiraz etmir. Bu istiqamətlər üzrə böyük işlərin görülməsi, gələcəkdə müstəqil Azərbaycanın əsaslı iqtisadı, mədəni və infrastruktur əsaslarının qoyulmasına xidmət etmişdi.

Təsadüfi deyil ki, sonradan 70-ci illərin Heydər Əliyev Azərbaycanını possovet məkanında və dünya politoloji mərkəzlərində durğunluq keçirən "SSRİ dənizində" ayrıca bir adaya bənzədirdilər. Bunu açıq-aydın görən keçmiş ittifaq rəhbərliyində

sağlam qruplar, onun rəhbərlik və strateq bacarığından daha yüksək səviyyədə istifadə etməyin vacibliyini dəfələrlə vurğulayırdılar. Bununla belə Politbürodakı bəzi aparıcı şəxslərin antitürk və antiqafqaz əhval-ruhiyyəsi bunun Leonid Brejnyev dövründə reallaşmasına kəskin mane olurdu.

Ancaq 1982-ci ildə hakimiyyətə gələn Yuri Andropov ölkənin problemlərini yaxşı bildiyindən onların həllində Heydər Əliyev kimi bacarıqlı, realist, yalançı romantizmdən uzaq kadrların iştirakını yaxşı anlayırdı. Məhz bu məqsədlə Sovet rəhbərliyinin aparıcı mövqelərinə irəli çəkilən Əliyev 1987-ci ilə kimi çalışdığı bütün sahələrdə əsaslı dəyişikliklər edə bildi. İndiyə kimi onunla Moskvada işləmiş şəxslər həmyerlimizin şəxsi məsuliyyət hissindən, işi dərindən öyrənmək həvəsindən, mütəxəssislərlə məsləhətləşmək bacarığından, yenilikləri tətbiq etmək məharətini xüsusi qeyd edirlər. Heydər Əliyev stili sovetlərin doqmalara bağlılıq və kabinet qərarları iş stilindən kəskin fərqlənir, o dövrün ictimai həyatında dərin izlər buraxırdı.

Məhz bu fərq 1985-ci ildə hakimiyyətə gələn Mixail Qorbaçovun populist iş stili ilə uyğun gəlmirdi. Reforma görüntüsü yaradan bu siyasətçi əslində köhnə iş üslubunu yeni qiyafədə qoruyub saxlamağa çalışırdı. Qeyd etmək lazımdır ki, gurultulu bəyanatlara və öhdəliklərə baxmayaraq Sov.İKP-nın axırıncı Baş Katibinin hakimiyyəti dövründə nə iqtisadi, nə sosial, nə də beynəlxalq aləmdə müsbət nəticələr əldə edilə bilinmədi. 1991-ci ildə SSRİ-nin bütün sahələr üzrə göstəriciləri Qorbaçovun hakimiyyətə gəldiyi 1988-ci illərdən qat-qat pis idi. Həmin dövrdən cəmiyyətdə kök salmış mənfi amillər isə hələ uzun illər gənc müstəqil dövlətlərin inkişafına çox ciddi mənfi təsir göstərməkdə davam edəcəkdi.

Şöhrətpərəst Mixail Sergeyeviç özünün çiy "perestroyka"sına cəmiyyətdə əsl islahatçı və təkamülçü qüvvələrin müqavimət göstərəciyini yaxşı bilirdi. Vaxtı çoxdan çatmış dəyişikliklər əvəzinə o cəmiyyətdə onun görüntüsünü yaratmağa cəhd edirdi. Buna görə də o təkamülçüləri mühafizəkar kommunistlərlə bir sıraya qataraq onları fəal siyasi fəaliyyətdən uzaqlaşdırmağa çalışırdı. Onun təbliğat maşını cəmiyyətin hər iki təbəqəsini yeniləşmənin əleyhdarları kimi qələmə verməyə çalışırdı. Əslində isə bunlar arasında fərq çox ciddi idi. Ortodoksal kommunistlər sovet quruluşunun hər hansı formada dəyişilməsinin əleyhdarları idilər. İslahatçılar isə nəticəsi bilinmədən edilən radikal dəyişikliklərin əvəzinə real situasiyanı və qabaqcıl beynəlxalq təcrübəni nəzərə alan təkamül inkişafının tərəfdarı idilər.

Qeyd etmək lazımdır ki, Sovet İttifaqı dağıldıqdan sonra müstəqillik qazanan keçmiş sovet respublikaları məhz ikinci yolu seçmiş və nəticədə nəzərə çarpacaq nəticələr əldə edə bildilər. 80-cı illərin ikinci yarısında isə Qorbaçov və onun qrupu SSRİ və müttəfiq respublika rəhbərliyindən təkamülçüləri uzaqlaşdırmağa nail oldular. Çünki onların siyasi xəttinin qəbul edilməsi Qorbaçovun gərəksizliyinə və onun ambisiyalarının gerçəkləşməsinə ciddi mane ola bilərdi. Ona görə də o gəncləşdirmə bəhanəsi ilə Heydər Əliyevi, Dimuxamed Kunayevi, Vladimir Dolgixi və digər təcrübəli siyasətçi və təsərrüfat rəhbərlərini böyük siyasətdən uzaqlaşdıra bildi. Onların əvəzinə gətirdiyi şəxslər isə adıçəkilən şəxslərdən yaşlı və heç vaxt ağır məsuliyyət hissini çiyinlərində daşımamış insanlar idi. Onların fəaliyyəti ayrı-ayrı müttəfiq respublikaların və ümumilikdə ittifaqın vaxtı çatmış problemlərini nəinki həll etmədi, əksinə, onların ağırlaşmasına gatirib çıxartdı. Qanlı Bakı, Vilnüs, Fərqanə hadisələri, Azərbaycanın Dağlıq Qarabağ, Gürcüstanın Abxaziya, Cənubi Osetiya, Moldovanın Dnestryanı problemləri, həyat səviyyəsinin durmadan aşağı düşməsi, demokratiya və bazar münasibətləri prinsiplərinin gözdən salınması, ittifaq mülkiyyətinin respublikalar arasında qeyri-bərabər bölünməsi siyasətinin həyata keçirilməsi Qorbaçov dövrünün real xarakteristikası sayıla bilər.

Maraqlı bir haldır ki, Qorbaçov qrupunun aparıcı şəxslərindən heç birinə sonradan nə Rusiyanın, nə də öz respublikalarının böyük siyasətində sosial tələbat olmadı və onlar yeni dövrün siyasətçilərinə çevrilə bilmədilər. Qorbaçov isə 1996-cı ildə Rusiya Federasiyasının Prezidenti seçkilərində cəmisi 1% səs toplaya bildi.

M.Qorbaçov və komandasından fərqli olaraq vaxtilə düşünülmüş islahatların tərəfdarları demokratik şəraitdə böyük siyasətdə uğurlar qazana bildilər. Azərbaycandan Heydər Əliyev, Rusiyadan Boris Yeltsin, Qazaxstandan Dimuxamed Kunayevin siyasi varisi olan Nursultan Nazarbayevin, Litvadan Algirdas Brazauskasın demokratik baxışları öz ölkələrinin sivil dövlət quruculuğunda, iqtisadi problemlərin həllində, dünya birliyinə inteqrasiya məsələlərində çox gərəkli oldu. Konkret olaraq Azərbaycan timsalında isə Heydər Əliyev təkamülçü, demokratik fikirli və realist siyasətçinin nə kimi böyük işlər görə biləcəyini sübut edə bildi.

Bu gün Prezident Heydər Əliyev böyük siyasətdədir və ölkənin bütün sahələr üzrə inkişafında konkret müsbət nəticələr əldə etməsinə nail olubdur. Onun ölkəsində böyük sosial bazası, aydın siyasi kursu və ölçüyəgəlməz şəxsi nüfuzu vardır. Dövlət başçımızın siyasi fəaliyyəti daima böyük maraq doğurur və o bu gün dünyanın tanınmış nüfuzlu liderlərindən biri hesab edilir.

Dünyanın bir sıra aparıcı politoloji mərkəzləri Heydər Əliyev siyasi fəaliyyətinin araşdırılması ilə məşğuldur və onu öz müəllimi hesab edən xarici gənc siyasi liderlər də az deyildir.

Azərbaycan cəmiyyətində tez-tez Heydər Əliyevin böyük siyasətdə olmadığı illər xatırlanır və müxtəlif siyasi modelləşdirmə variantları səsləndirilir. Çox düzgün olaraq hesab edilir ki, prezidentimiz o dövrün siyasi proseslərində olsaydı, bir çox məsələlər tamam başqa istiqamətdə və ağrısız həll edilə bilərdi.

Təəssüf ki, bir çox sahələrdən fərqli olaraq tarixdə təkrarlamaq və hipotezi yoxlamaq variantı mümkün deyildir. Tarix yenidən yazılmır və iştirakçıların sayını və statusunu dəyişmək qeyri-mümkündür. Prezident Əliyevin həmin dövrdə siyasətdən kənarda qalması isə onun özündən asılı olmayaraq süni surətdə yaradılan səbəblərlə bağlı idi.

Bununla belə, siyasi modelləşdirmə üsulundan istifadə edərək, ötən dövrlərin nəzəri cəhətcə mümkün variantlarını nəzərdən keçirmək mümkündür.

İlk növbədə qeyd etmək lazımdır ki, 1982-ci ildə Heydər Əliyevin Moskvaya, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi kəskin zərurətdən doğan məsələ idi. Ali rəhbərliyə gələn Yuri Andropov yaxşı başa düşürdü ki, Sovetlər Birliyinin çoxsaylı və mürəkkəb problemlərini həll etmək üçün məsələlərə qeyri-ordinar yanaşmağı bacaran Heydər Əliyev kimi yeni təfəkkürlü kadrlardan geniş istifadə edilməlidir. Təsadüfi deyil ki, sonralar onun iş stilinin kəskin fərqləndiyi və böyük maraq doğurduğu barədə çoxsaylı faktlar sadalanmağa başladı.

Tarixi təsadüf nəticəsində həmin ildə sovet rəhbərliyinə Y.Andropov deyil, köhnə iş stilinin davamçılarından da biri gələ bilərdi. Bu zaman gələcək prezidentimizin Bakıya öz köhnə postunda qalması da, Azərbaycana pis heç nə vəd eləmirdi. SSR-də hökm sürən sərt inzibati-amiranəlik sistemi şəraitində belə milli potensialın qorunması, iqtisadi inkişaf üçün bütün mümkün variantların istifadə edilməsi, ictimai inkişafın elementlərinin cəmiyyətə gətirilməsi – respublikamızın birinci Heydər Əliyev dönəminin reallıqlarından sayıla bilərdi.

H.Əliyev əgər KP MK-nın (o dövrün yeganə və alternativsiz dövlət hakimiyyəti) birinci katibi qalsaydı, Azərbaycanın ictimai inkişaf dinamikası yenə yüksəlməkdə davam edəcəkdi. Söhbət Sovet sisteminin məcburi plan faktorundan deyil, bu faktorun xalqın sosial səviyyəsinin artmasında istifadə edilməsinə, Azərbaycan xalqının mənəvi dəyərlərinin daha da açılmasına yönəltməkdən gedir. Eyni zamanda iqtisadiyyatın gəlir gətirən yeni sahələrinin yaradılmasına, yeni texnika və texnologiyaların respublikaya gətirilməsi sahəsində fəaliyyət genişləndiriləcəkdi. Azərbaycanın Heydər Əliyevdən sonrakı rəhbəri Kamran Bağırovdan fərqli olaraq o Sov.İKP-nın 1981-ci ildə keçirilmiş XXVI qurultayında nəzərdə tutulmuş Yalama-Nabran turist kompleksinin, Əli Bayramlı vertolyot zavodunun, Gəncə avtomobil zavodunun tikintisinin başa çatdırılmasına nail olacaqdı.

Yenə də Kamran Bağırovdan fərqli olaraq o Mixail Qorbaçovun avantürist "perestroyka"sına uymayacaq, sənayedə və kənd təsərrüfatında əsassız eksperimentlərin təsirini maksimum azaltmağa nail olacaqdı. Min-bir çətinliklərlə salınmış üzüm plantasiyaları dağılmayacaq, kooperativlər rəhbər işçilər üçün gəlir mənbəyinə çevrilməyəcəkdi. Yaranmış iqtisadı sərbəstlik elementlərindən istifadə edilərək respublikanın optimal xalq təsərrüfati sistemi yaradılacaqdı.

"Aşkarlığın" regionçuluğa və donosçuluğa çevrilməsinə imkan verilməyəcəkdi. Eyni zamanda mədəni sahədə istənilən yenilik üçün Moskvanın razılığının alınması praktikasına tədricən son qoyulacaqdı. Xalqımızın əsl tarixinin öyrənilməsi və milli köklərinə qayıdış sahəsində ciddi addımlar atılmağa başlanacaqdı.

Kommunist Partiyasının cəmiyyətdə yeri və rolu məsələsinə baxılmasında Azərbaycan öndə gedən respublikalardan biri olacağına heç bir şübhə olmayacaqdı. Respublika ictimaiyyəti lideri Heydər Əliyev başda olmaqla SSRİ-də gedən demokratikləşmənin dərinləşməsində fəal iştirak edəcək, AKP-nin yeni şəraitdə, yeni prinsiplərlə formalaşmasına nail olacaqdı. İlk əvvəl bu partiya sıralarında ideoloji mübarizədə demokratik qüvvələrin maneəsiz üzə çıxmasına şərait yaradılacaqdı. Partiya tədricən inzibati-amiranəlik prinsipindən uzaqlaşacaq və demokratik prinsiplərə uyğun olaraq sırf siyasi təşkilat yerini tutacaqdı. Təsadüfi deyil ki, 1992-ci ildə Heydər Əliyevin adı ilə yaranan Yeni Azərbaycan Partiyası proqnozlara baxmayaraq, Azərbaycan cəmiyyətində "prezident partiyası" kimi deyil, siyasi partiyalardan biri kimi fəaliyyət göstərməkdə davam edir.



Heydər Əliyevin 80-ci illərin ortasında Azərbaycanda qalacağı təqdirdə cəmiyyətin tədricən "sovet demokratiyasından" uzaqlaşaraq Avropa demokratiyasına keçəcəyi və vətəndaş təsisatlarının yaranacağı gözlənilən idi. Bu çoxsaylı qeyri-hökumət təşkilatlarının və ən əsası demokratik siyasi partiyaların yaranmasına gətirib çıxaracaqdı.

85-87-ci illərdə Heydər Əliyev yeniləşmə bəhanəsi ilə Mixail Qorbaçov tərəfindən respublika rəhbərliyindən uzaqlaşdırıla da bilərdi. Ancaq keçmiş Sovet İttifaqında durmadan dərinləşən demokratikləşmə Azərbaycanda yenidən H.Əliyevin təcrübəsinə tələbatı üzə çıxaracaqdı. Vəzifədə olması da onun varlığı Kamran Bağırovun ətalətinə və Vəzirov-Mütəllibov qrupunun Moskvaya yarınmağına ciddi sipər olacaq, xalqın ağır günlərdə ümidinin sınmasına imkan verməyəcəkdi.

Bütün məhrumiyyətlərə baxmayaraq, Heydər Əliyev siyasi liderliyi 1988-ci illərdə mütləq üzə çıxmalı idi və xalq hərəkatının potensialı boş yerə itməyəcəkdi. Ona görə də Dağlıq Qarabağ probleminin yaratdığı bir sıra fəsadların qarşısı qətiyyətlə alınacaqdı.

Nəzəri cəhətcə prezidentimiz 1987-ci ildə Qorbaçov tərəfindən yüksək vəzifələrdən uzaqlaşdırılmaya da bilərdi. Ancaq bu Qorbaçov qrupunun mənafeyinə xidmət etməyəcəkdi. Belə ki, o yersiz siyasi və iqtisadi eksperimentlərin əleyhinə çıxacaq, müttəfiq respublikalara daha çox müstəqillik verilməsini dəstəkləyəcək, Sov.İKP hakimiyyət faktorundan siyasi təşkilat faktoruna çevrilməsinə çağıracaq, arzunun siyasi proseslərə qarışmasına mane olacaq, ictimai proseslərin önündə getməyə çağıracaqdı.

Heydər Əliyev Boris Yeltsinin demokratik dəyişikliklər baxışlarını dəstəkləyəcək, SSRİ-nin müstəqil dövlətlərə ayrılması prosesinin sivil və qansız getməsi yollarının təbliğatçısı olacaqdı. Onun Siyasi Büroda olması bir çox düşünülməmiş, avantürist xarakterli qərarların qəbuluna maneçilik törədəcəkdi. Onun demokratik islahatları dəstəkləməsi əhalinin birdən-birə ağır sosial problemlər girdabına düşmə-sinə mane olacaq, bir sistemdən digərinə keçidin tədricən baş verməsinə güclü yardımçı olacaqdı.

Heydər Əliyevin aktiv fəaliyyətdə olması 1988-ci ildə Dağlıq Qarabağ avantürasının və onun davamı kimi məlum hadisələrin baş verməsinin qarşısı alınacaqdı. Çünki, bu hadisələrin məhz 1987-ci ilin oktyabrında H.Əliyevin yüksək vəzifələrdən uzaqlaşdırılmasından sonra başlaması artıq təsdiqlənmiş bir faktdır. Erməni millətçilərinin səyi ilə onun altı il müddətinə böyük siyasətdən kənarlaşdırılması Dağlıq Qarabağ probleminin yaranmasına və onun ardınca SSRİ-nin sütunlarının katastrofik şəkildə dağılmasına və məlum tarixi hadisələrə gətirib çıxartdı.

Artıq tarixdir ki, öz qarşısında Azərbaycan xalqının əsl liderini görməyən erməni millətçilərinin 1988-ci ilin fevralında keçmiş Stepanakertdə (indiki Xankəndi) başladığı aksiyanın fəsadlar törədən mərhələləri bir-birini əvəz edirdi. Respublika ictimaiyyəti Ermənistan tərəfinin qəsbkarlığına qarşı qalxsa da, onun təcrübəli və nüfuzlu rəhbərinin olmamasından aqresiyanın qarşısını almaq mümkün olmurdu.

Özünü xalq hərəkatının tribunasına vermiş təsadüfi şəxslərin siyasəti isə xalqımızın itkilərinin durmadan artmasına, problemlərin ağırlaşmasına gətirib çıxarirdi.

Ancaq cəmiyyət yaxşı dərk edirdi ki, məkrli düşmənin qarşısına ancaq Heydər Əliyev kimi güclü strateqin çıxarılması vəziyyəti kəskin şəkildə dəyişə bilərdi. Ədalətsizliklə müşayiət olunan və Azərbaycan xalqının hüquqlarının kobud surətdə pozulduğu bir dövrdə Heydər Əliyev ictimaiyyət tərəfindən daha qətiyyətlə tələb edilirdi. Onun xalqının mənafeyini ciddi surətdə müdafiə edəcəyini yaxşı başa düşən rəsmi Moskva keçmiş Siyasi Büro üzvünün nəinki siyasi fəaliyyətinə, hətta sərbəst şəxsi həyatına belə ciddi yasaq qoymuşdu.

Heydər Əliyevinsə 1993-cü ilin iyunun 15-dən əvvəl gələcəyi hər bir gün, həftə, ay, il respublikanın ağır taleyini bir gün, həftə, ay, il azaltmağa imkan verərdi. Aydındır ki, rəsmi strukturlar onun böyük siyasətdə iştirakına bütün vəcdlə mane olacaqdılar. Ancaq gələcək prezidentimizin siyasi proseslərin içində olması, onun rəhbərliyi ilə xalqın birliyinə, onun nəhəng potensialının Moskvanın himayəsi ilə erməni təcavüzünün qarşısının alınmasına yönələrdi.

Ən müasir tariximizi 20 Yanvar, Xocalı faciələrsiz, soydaşlarımızın qədim İrəvan torpağından qovulması, yandırılmış Qarabağ kəndlərsiz, mədəniyyət abidələrinin məhv edilməsini, minlərlə soydaşlarımızın əsir düşməsini, vətəndaş müharibəsi təhlükəsini və c. bu kimi faciələrsiz təsəvvür etmək hər birimiz üçün çox xoş olardı.

Bütün bunların heç biri olmayacaqdı; əgər Heydər Əliyev hətta Siyasi Bürodan çıxdıqdan sonra belə 80-ci illərin axırında siyasətə qayıtmaq imkanı əldə edə bilsəydi. Ancaq dağılmaqda olan Sovetlərin rəhbərliyinə çaşqın, ağır problemli, erməni təcavüzü qarşısında əzilmiş Azərbaycan lazım olduğundan buna mane olmağa çalışırdılar.

1990-cı ilin 20 Yanvar faciəsindən dərhal sonra Heydər Əliyevin qadağalara baxmayaraq, həyatını təhlükə altına qoyaraq Moskvadakı Azərbaycan nümayəndəliyinin binasına gəlməsi və sovet rəhbəliyinin ünvanına kəskin ittihamlarla çıxış etməsi onun şəxsiyyətinə böyük ictimai tələbatı bir daha üzə çıxartdı. Azərbaycan xalqı öz problemlərinin həlli üçün yeganə şansına bir daha çox ümidli oldu.

Ancaq həmin vaxt isə Heydər Əliyevi Bakıya artıq onun vaxtilə vəzifəyə gətirdiyi şəxslər buraxmaq istəmirdilər. Ayaz Mütəllibov və onun komandası təsadüfən əllərinə keçən hakimiyyəti qorumaq üçün xalqın görkəmli oğlunun respublika siyasi həyatına gəlişini əngəlləməyə başladılar. Ona hədə-qorxunun göndərilməsi, görkəmli ziyalı Əjdər Xanbabayevin qəddarcasına öldürülməsi, Heydər Əliyevə rəğbəti olanların vəzifələrdən götürülməsi və respublikadan didərgin salınması Moskva əlaltılarının antiəliyev fəaliyyətinin az bir hissəsi idi.



Həmin dövrdə Heydər Əliyev respublikada aktiv siyasətdə olması erməni təcavüzünə qarşı ölkə ictimaiyyətinin mobil hazırlığını təmin etmiş olardı. Onun hakimiyyətdə olması isə Qarabağda separatçıların əl-ayağının yığışdırılmasına, Ermənistandan gələn qaçqınların Dağlıq Qarabağda yerləşdirilməsinə, nizami özünümüdafiə dəstələrinin yaradılmasına, respublikadakı mülkiyyətə gənc dövlətimizin özünün sahib olmasına gətirib çıxarardı.

Qüdrətli Heydər Əliyev yalançı demokratlar olan AXC-Müsavat hakimiyyətinə də lazım deyildi. Ona hətta ağırlığını çəkdiyini Naxçıvanı da çox görmək istəyirdilər. Əgər Lider o vaxt hakimiyyətdə olsaydı, ittifaq mülkiyyətindən Azərbaycana düşən hissəsi tamamilə alınardı, respublikanın onsuz da az olan maliyyə vəsaitləri dağıdılmazdı. Sovet Ordusunun silah-sursatların çıxarılmasına imkan verilməzdi, vaxt itirilmədəm Milli Ordumuzun yaradılmasına başlanardı, torpaqlarımız işğal edilməzdi, 1 milyon qaçqınımızın əmələ gəlməsinə imkan verilməzdi, Surət Hüseynovlar, Rəhim Qazıyevlər meydana gəlməzdi və s.

Ancaq bütün bunların hamısı Heydər Əliyevin böyük siyasətdə olmaması səbəbindən baş verib və artıq tariximizin qara səhifələrini təşkil edir. Onu layiq olduğu yerdə görmək üçün xalqımız bir çox məşəqqətlərdən keçməli, bir çox itkilər verməli, təsadüfi şəxslərin rəhbərliyini öz üzərində hiss etməli, acı təcrübə nümunələri qazanmalı idi. Tarixi dəyişmək mümkün olmasa da, onda nəticə çıxarmaq mümkündür və xalqımız bunu mərdliklə edə bildi.

Heydər Əliyevin 15 iyun 1993-cü ildən ölkə rəhbərliyinə gəlişi tarixin ağır dərslərinin sırasını dayandıra bildi və tarixi Azərbaycanın xeyrinə işləməyə məcbur etdi.

Azərbaycan Heydər Əliyev yolu ilə addımladıqca, tarix həmişə onun xeyrinə işləyəcək.